**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazma hüququnda*

# AKADEMİK MƏMMƏD CƏFƏR CƏFƏROVUN YARADICILIĞI AZƏRBAYCAN-RUS ƏDƏBİ ƏLAQƏLƏRİ KONTEKSTİNDƏ

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (rus ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **Nuridə Hüseyn qızı Qənbərova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələrin ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Zenfira Əlişah qızı Vəliyeva** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Tamilla Əbdul Məcid qızı Xəlilova** |
| | filologiya elmləri doktoru, dosent<br>**Ramiz Hüseyn oğlu Bağırov** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Fərrux Məmməd oğlu Məmmədov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.13 Dissertasiya şurası

| | | |
|---|---|---|
| Dissertasiya şurasının sədri: | ____________ | filologiya elmləri doktoru, professor<br>**Rəhilə Hüseyn qızı Quliyeva** |
| Dissertasiya şurasının elmi katibi: | ____________ | filologiya üzrə fəlsəfə doktoru<br>**Suad Arif qızı Əfəndiyeva** |
| Elmi seminarın sədri: | ____________ | filologiya elmləri doktoru, professor<br>**Bella Sirac qızı Musayeva** |

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bakı Slavyan Universiteti

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Milli ədəbiyyatların qarşılıqlı əlaqəsi və qarşılıqlı zənginləşməsi prosesinin öyrənilməsi ədəbiyyatşünaslıq elminin aktual vəzifələrindən biridir. Ədəbi prosesə müasir baxış, cəmiyyətin inkişafının ideoloji komponentlərinin bir növ yenidən nəzərdən keçirilməsi, ədəbi, tarixi və mədəni amillərin inteqrasiyası yollarının axtarışı ədəbiyyatların qarşılıqlı əlaqəsi problemlərini araşdırmağa imkan verir və bu problem Sovet hökumətinin süqutundan sonra xüsusi əhəmiyyət kəsb etmişdir.

Bu dissertasiya işində ədəbi əlaqələr tədqiqatçılarından birinin yaradıcılığına həsr olunsa da, geniş ədəbi kontekst imperativi və onun arxasında duran nəhəng mənəvi-estetik məzmunla bağlı bir çox məsələlərin tədqiqini ehtiva edir.

Milli ədəbiyyatların hər birinin yaradıcılıq axtarışı, adət-ənənələrinin bütün rəngarəngliyi həmişə qarşılıqlı əlaqə prosesi ilə bağlıdır. İstər milli, istərsə də xarici ədəbiyyatın inkişafının əsas səbəblərindən biri də budur. Görkəmli tədqiqatçı Ç.Hüseynov qeyd edirdi: *“Milli ədəbiyyatın başqa ədəbiyyatlarla əlaqələri daimidir, sabitdir, bir çox istiqamətlərdə gedir və eyni zamanda həm özü, həm də başqaları zənginləşir – söhbət ədəbiyyatlar arasında müasir və getdikcə sürətlənən qarşılıqlı əlaqər proseslərindən gedir...”*[1].

Milli ədəbiyyatın məziyyətlərini və xüsusiyyətlərini daha çox xarici ədəbiyyatla əlaqədə müəyyən etmək olur. Bu baxımdan Azərbaycan-rus ədəbi əlaqələrini əks etdirən əsərlərin tədqiqi böyük metodoloji əhəmiyyət kəsb edir. XX əsrin 30-cu illərindən başlayaraq bu problem Azərbaycanın görkəmli ədəbiyyatşünaslarının əsərlərində əsas elmi təhlil mövzularından birinə çevrilmişdir.

Bu problemin bir tərəfi rus klassiklərinin yaradıcılıq irsinin öyrənilməsi ilə bağlıdır. XX əsrin ortalarından başlayaraq Azərbaycan alimlərinin (Ş.Qurbanov, M.C.Cəfərov, M.Rəfili, M.Arif və s.) rus ədəbiyyatının tədqiqinə həsr olunmuş fundamental elmi əsərləri dərc edilmişdir. Bu əsərlər təkcə rus yazıçılarının yaradıcılığının Azərbaycanda populyarlaşmasında deyil, həm də rus

---

[1] Гусейнов, Ч.Г. Этот живой феномен / Ч.Г.Гусейнов. – Москва: Советский писатель, – 1988. – с.8.

və Azərbaycan ədəbiyyatının qarşılıqlı əlaqə proseslərinin izlənməsində böyük rol oynamışdır. Ədəbiyyatların ümumiliyi və fərqliliyi ilə bağlı bir çox metodoloji məsələləri əks etdirərək bu əsərlər ümumi nəzəri əhəmiyyət də kəsb edirlər.

Dissertasiya işinin əsasını görkəmli Azərbaycan tədqiqatçılarından biri – akademik Məmməd Cəfər Cəfərovun yaradıcılığının tədqiqi təşkil etmişdir. O, öz əsərləri ilə təkcə rus ədəbiyyatı və Azərbaycan-rus ədəbi əlaqələri ilə bağlı problemlərin həllinə deyil, dünya ədəbiyyatı, incəsənəti və mədəniyyətinin bir sıra digər mühüm problemlərinin həllinə də əvəzsiz töhfələr vermişdir. Ş.Qurbanov "XIX əsrdə Azərbaycan-rus ədəbi əlaqələrinin inkişaf mərhələləri" kitabında bu sahədə ən yaxşı tədqiqatçılarından biri kimi M.C.Cəfərovun adını çəkir. Bununla bərabər onun Azərbaycan ədəbiyyatının korifeyləri – Nizami, Füzuli, M.F.Axundzadə, M.Ə.Sabir, C.Məmmədquluzadə, H.Cavidin yaradıcılıqlarına aid tədqiqatları da böyük əhəmiyyət kəsb edir.

Dissertasiyanın mövzusunun aktuallığı ondan ibarətdir ki, millətlərarası ədəbi əlaqələrin öyrənilməsinin vacibliyi kontekstində onun ayrı-ayrı komponentlərinin dəqiqləşdirilməsi və boşluqların doldurulması məqsədi ilə bu mədəni fenomenin məzmununa və M.C.Cəfərov kimi görkəmli ədəbiyyatşünasların yaradıcılığının tədqiqi sahəsinə yenidən baxılması zərurəti yaranır.

Akademik M.C.Cəfərovun yaradıcılığı bir sıra elmi əsərlərdə tədqiq edilmişdir. Bunlardan N.M.Sadıxovanın "Rus klassik ədəbiyyatı Məmməd Cəfərin elmi-tənqidi irsində" (Bakı, 1996), S.Y.Osmanlının "Azərbaycan müqayisəli ədəbiyyatının təkamülü problemi: 1950-1980-ci illər doktorluq dissertasiyalarını xüsusi qeyd etmək olar. Azərbaycan-rus ədəbi əlaqələrinə dair tədqiqat materialında") (Bakı, 2007). Onun yaradıcılığının ayrı-ayrı tərəflərinə bir sıra elmi əsərlərdə də toxunulub: N.Babayevin "XX əsr Füzuli və Azərbaycan romantizmi"; "Akademik M.C.Cəfərov ədəbiyyat nəzəriyyəçisi kimi" (AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşri; müəlliflər: T.Məmməd; C.Yusifli, M.Mustafayev və başqaları, Bakı, 2019); M.Tağıyevanın "Azərbaycanda F.M.Dostoyevskinin yaradıcılığının tədqiqi tarixi" (Bakı, 2020) və digərləri. Lakin bütün bu əsərlər Azərbaycan-rus

ədəbi əlaqələri kontekstində M.C.Cəfərovun ədəbi tənqidin inkişafına verdiyi əvəzsiz töhfə haqqında tam təsəvvür yaratmır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini akademik M.C.Cəfərovun XX əsrin 30-80-ci illərində yazılmış və Azərbaycan-rus ədəbi əlaqələrinə həsr olunmuş ədəbi, elmi, pedaqoji və publisistik əsərləri təşkil edir. Tədqiqatın predmeti – Azərbaycan-rus ədəbi əlaqələri kontekstində M.C.Cəfərovun yaradıcılıq irsinin araşdırılmasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi akademik M.C.Cəfərovun ədəbi-bədii irsinin xüsusilə XX əsrin ədəbi prosesi üçün əlamətdar hadisə olan Azərbaycan və Rusiya ədəbi əlaqələri kontekstində hərtərəfli tədqiqidir.

Tədqiqatın vəzifələri:

– Akademik M.C.Cəfərovun həyat və yaradıcılıq yolunu izləmək;

– Yaradıcılıq irsini təşkil edən əsərləri sistemləşdirmək;

– Alimin yaradıcılığının əsaslandığı metodoloji prinsipləri müəyyən etmək;

– Akademikin həm rus, həm də Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində tədqiqatlarının əhəmiyyətiniüzə çıxarmaq;

– Alimin əsərlərinin metodoloji əsaslarını, onların zamanla əlaqəsini və ikili "milli – qeyri-milli ədəbi əlaqələr"in yaranması və inkişafını əvvəlcədən müəyyən edən "zəmin"i nəzərdən keçirmək;

– Alimin Azərbaycan-rus ədəbi əlaqələri sahəsində tədqiqatlara sadiqliyinin obyektiv və subyektiv amillərini müəyyən etmək;

– M.C.Cəfərov və digər ədəbiyyatşünasların anlayışlarında ümumi və fərqli cəhətləri tapmaq;

– Alimin tədqiqatı zamanı istifadə etdiyi bədii əsərlərin təhlilinin müxtəlif modellərini nəzərdən keçirmək;

– Alimin irsinin pedaqogikanın, fəlsəfənin, incəsənətin inkişafındakı əhəmiyyətini və dərsliklərin yaradılmasındakı xidmətlərini vurğulamaq;

– Akademik M.C.Cəfərovun bədii və publisistik əsərlərinin orijinallığını müəyyən edilməsi.

**Tədqiqat metodları** tarixi-ədəbi və nəzəri-tipoloji metodları, habelə bioqrafik və sistemli-funksional təhlil elementlərini özündə

birləşdirən alimin yaradıcılığının hərtərəfli öyrənilməsi prinsiplərinə əsaslanır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Akademik M.C.Cəfərovun yaradıcılıq irsi keçmiş sovet ədəbiyyatının əsaslarının ideoloji cəhətdən müəyyən edilmiş imperativi şəraitində fikir azadlığının nümunəsidir;

– Akademik M.C.Cəfərovun ədəbi strategiyası həm Azərbaycan, həm də rus ədəbiyyatı nümayəndələrinə həsr olunmuş ədəbi portretlərin reprezentativ nümunələri və oçerkləri əsasında açılır;

– M.C.Cəfərovun nəzəri mülahizələrinin əsasını ədəbiyyat, mədəniyyət, fəlsəfə, tarix, incəsənətin inteqrasiyasına əsaslanan Azərbaycan-rus ədəbi əlaqələri problemlərinin öyrənilməsinə sistemli yanaşma təşkil edir;

– Akademikin tədqiqatlarında Azərbaycan-rus ədəbi əlaqələri paritet əsasda mədəniyyət hadisəsi kimi nəzərdən keçirilir;

– Akademik M.C.Cəfərovun fəaliyyətinin çoxşaxəliliyi həm elmi, həm də pedaqoji aspektdə özünü göstərir;

– Dərsliklərin yaradılması rus ədəbiyyatının nəhəng təbəqəsinə sistemli yanaşmaya əsaslanır.

**Tədqiqatın elmi yeniliyi** ilk növbədə ondan ibarətdir ki, Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Azərbaycan-rus ədəbi əlaqələri və Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan ən böyük alimlərdən birinin həyat və yaradıcılığının bütöv şəkildə tədqiqi həyata keçirilir.

Akademikin fəaliyyətinin hərtərəfli öyrənilməsinə yaranan ehtiyacla əlaqədar olaraq, işin yeniliyi onun fəaliyyətinin bir sıra aspektlərinin təhlilində özünü göstərir: elmi tədqiqatların əsas istiqamətləri, elmi-pedaqoji sahədə ardıcıllıq, Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafına töhfə, yaradıcılığın metodoloji əsasları, elmi araşdırmaların publisistika, nəsr elementləri ilə zənginləşdirilməsi və s.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** onunla müəyyən edilir ki, bu tədqiqat işinin materialları ali məktəblərdə ədəbiyyat nəzəriyyəsi, Azərbaycan və rus ədəbiyyatı tarixi fənlərinin tədrisi praktikasında istifadə oluna bilər. Tədqiqatın nəticələri həm XIX həm də XX əsrlərdə Azərbaycan və rus ədəbiyyatlarının inkişaf

qanunauyğunluqları, görkəmli nömayəndələri haqqında nəzəri biliklərin dairəsini genişləndirməyə imkan verir. Tədqiqatın nəticələri ədəbi əlaqələr metodologiyasının nəzəri əsasları və tarixinin öyrənilməsində də faydalı ola bilər.

**Aprobasiyası və tədbiqi.** Dissertasiyanın əsas elmi-nəzəri müddəaları və nəticələri beş beynəlxalq elmi konfransda məruzə və çıxışlar şəklində müzakirə edilmiş və təqdim edilmişdir: 6$^{th}$ international Euroasia Congress on Scientific Researches and Resent Trends (Bakı, 18-20 may 2020-ci il); VI Elmi Araşdırmalar və aktual səviyyəli Beynəlxalq konfransın materialları (Bakı, Avrasiya Universiteti, 2020-ci il); XXI Beynəlxalq Elmi-Praktik Konfrans (Penza, 27 iyul 2022-ci il); Əl-Farabi XI Beynəlxalq konfrans (Atatürk Universiteti, Ərzurum, Türkiyə, 19-20 avqust, 2022-ci il); Tələbələrin XLVIII Elmi-Praktik Konfransı "Mədəniyyət dünyası gənc tədqiqatçıların gözü ilə" (Perm, 2023-cü il) və müəllifin 12 nəşrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələrin ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya Giriş, üç fəsil, Nəticə və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir. Giriş – 12 səhifə, 19363 işarə, I fəsil – 40 səhifə, 68157 işarə, II fəsil – 37 səhifə, 62935 işarə, III fəsil – 41 səhifə, 70604 işarə, nəticə – 7 səhifə, 12155 işarə. Dissertasiyanın ümumi həcmi 149 səhifə, 233214 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, obyekt və predmet, işin məqsəd və vəzifələri, metodlar, müdafiəyə təqdim edilmiş müddəalar, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, elmi işin strukturu və habelə aprobasiyası haqqında məlumat verilir.

Əsərin birinci fəsli – **"Akademik M.C.Cəfərovun həyat və yaradıcılığı"** iki paraqrafdan ibarətdir. Birinci paraqrafda –

**“M.C.Cəfərovun ömür yolu və şəxsiyyətinin formalaşma mərhələləri”** – alim və pedaqoqun keçdiyi həyat yolu, onun tədricən bir şəxsiyyət kimi formalaşması izlənilir. Burada kasıb bir ailədən olan uşağın oxumağa, biliklərə yiyələnməyə həvəsi xüsusilə vurğulanır. Qeyd olunur ki, o, əvvəlcə xeyriyyə təşkilatlarından birinin Naxçıvanda yaratdığı ibtidai məktəbdə, sonra isə “rus-tatar” (rus-azərbaycan) məktəbində təhsil alıb. Bundan sonra M.C.Cəfərov Naxçıvan Pedaqoji Məktəbində təhsilini davam etdirib (1929-1931).

Bununla kifayətlənməyən M.C.Cəfərov Bakıya gəlib Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olur. Bu dövr Bakıda bir çox qəzet və jurnallar fəaliyyət göstərirdi. M.C.Cəfərov özünü jurnalistikada sınamağa sınayır. O, bir sıra qəzetlərdə işləməyə başlayır və ədəbi işçidən baş redaktorluğa qədər yüksəlir.

Bakıya gəlişi ilə M.C.Cəfərovun dünya ədəbiyyatını öyrənməyə marağı artır. O, A.İ.Hertsenin, N.Q.Çernışevskinin, L.N. Tolstoyun, A.N.Ostrovskinin, T.Şevçenkonun, A.Barbüsun, Volterin və başqalarının əsərlərinə həsr olunmuş məqalələrlə mətbuatda çıxış edir. Bu M.C.Cəfərovun maraq dairəsini, xüsusi yazı tərzini və üslubunu formalaşdıran, milli və ümumbəşər dəyərləri üzvi şəkildə birləşdirən bir məktəb idi.

Bununla bərabər Azərbaycanın görkəmli söz ustalarının – Füzulinin, M.F.Axundzadənin, Səməd Vurğunun və başqalarının yaradıcılıq irsinin öyrənilməsi də ədəbiyyatşünas alimin diqqət mərkəzində olaraq onun elmi fəaliyyətində böyük yer tutur. M.C.Cəfərov Azərbaycan romantizminin təşəkkülünü də ətraflı tədqiq etmiş, “tənqid” termini ilə bağlı anlayışı ədəbiyyatşünaslığa daxil edərək, ona əvvəllər verilən mənanı aradan qaldırmışdır.

Bu paraqrafda xüsusilə qeyd olunur ki, M.C.Cəfərovun tənqidçi və ədəbiyyatşünas kimi yetişməsində yazıçı və ictimai xadim C.Məmmədquluzadənin böyük rolu olmuşdur. Alim C.Məmmədquluzadənin mütərəqqi ideyalarının davamçısı olaraq, onun milli ədəbiyyatın, tənqidin, publisistikanın inkişafındakı rolunu xüsusi vurğulayırdı. M.C.Cəfərov özünü mollanəsrəddinçi hesab edirdi, və onların yaradıcılığı onun elmi tədqiqat mövzularından birinə çevrilmişdir.

Sələflərinin ənənələrinə söykənərək M.C.Cəfərov milli ədəbi tənqidin daha da inkişaf etdirilməsinə, dünya ədəbiyyatının nailiyyətlərinin təbliğinə, Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafına xidmət etmişdir. O, öz ədəbiyyat tarixinə, ədəbi əlaqələrə, həsr olunmuş mühazirələrində yenilikçi yanaşma tərzini, ədəbiyyatın aktual problemlərinə özünəməxsus yozumu nümayiş etdirir, bununla da dinləyici auditoriyasının diqqətini cəlb edir.

M.C.Cəfərov böyük və olduqça mühüm miras qoyub. Bu, XIX əsr rus ədəbiyyatı tarixinə dair üç cildlik, filologiya fakültələrinin tələbələri üçün nəzərdə tutulmuş dərslik, eləcə də müxtəlif mövzular üzrə bir sıra, əsasən özünün tədris etdiyi xüsusi kurslar üçün nəzərdə tutulmuş əsərlər yazmışdır: “Rus ədəbiyyatı”, “Qərb ədəbiyyatı”, “Estetika və tənqid tarixi”, “Dövri mətbuat tarixi”, “Azərbaycan ədəbiyyatı tarixi” və s.

M.C.Cəfərovun gənclərin əxlaqi-estetik tərbiyəsi sahəsində yazılmış əsərlərini də qeyd etməmək mümkün deyil: “Estetik zövq haqqında” (Bakı, 1964); “Estetik tərbiyə, ailə və məktəb” (Bakı, 1967); “Ustadlıq yolunda” (Bakı, 1975).

M.C.Cəfərovun həyat və yaradıcılıq yolu, şəxsiyyətinin inkişaf mərhələləri və formalaşmasının təhlili nəticəsində belə qənaətə gəlmək olur ki, bu prosesin əsas amilləri aşağıdakılardır: uşaqlıqdan ədəbiyyata həvəsi və əhatə olunduğu xalq yaradıcılıq mühiti; aldığı təhsil; jurnalist kimi fəaliyyəti; dünya ədəbiyyatına maraq bə onun təhlili; mollanəsrəddinçilik ideyalarına bağlılığı; gənc nəslin yetişdirilməsi, təhsili və tərbiyəsi sahəsində gördüyü işlər və s.

**“M.C.Cəfərovun elmi fəaliyyətinin əsas istiqamətləri”** adlı ikinci paraqrafda söhbət onun elmi, ədəbi-pedaqoji fəaliyyətinin çoxşaxəliliyindən gedir. Alim, pedaqoq, publisist M.C.Cəfərovun irsinin təhlili onun tədqiqatlarının əsas istiqamətlərini müəyyən etməyə imkan verir. Bunlar aşağıdakılardır:

– Azərbaycan ədəbiyyatının genezisi məsələləri;
– rus və bütövlikdə dünya ədəbiyyatı tarixi;
– Azərbaycan-rus ədəbi əlaqələri;
– təhsil problemləri;
– gənc nəslin tərbiyəsi;
– jurnalistikanın rolu və sosial əhəmiyyəti və s.

M.C.Cəfərovun Nizami yaradıcılığı ilə bağlı araşdırmalarında dahi klassik əsrlər boyu söz ustadlarının müxtəlif nəsillərinə ilham verən parlaq bir şəxsiyyət kimi qiymətləndirilir. Nizami yaradıcılığının motivlərinin tədqiqi onu belə bir nəticəyə gətirir ki, dahi ustadın əsərləri qədim zamanlardan Azərbaycan xalqına xas olan ən yaxşı ənənələri, zənginliyi özündə ehtiva edərək milli poeziyamızın əsasını təşkil etmişdir.

Nəsiminin yaradıcılıq irsi ilə bağlı M.C.Cəfərovun araşdırmaları da az əhəmiyyət kəsb etmir. O, göstərir ki, onun əsərlərində təsəvvüf baxışları ilə yanaşı materialist ideyalar da ən güclü şəkildə əksini tapmışdır. Alimin gəldiyi nəticələr tədqiqatçıların diqqətini cəlb etmiş və gələcək araşdırmalar üçün zəngin material vermişdir.

M.C.Cəfərov Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq orta əsrlərin aparıcı şairlərinin yaradıcılığında yer alan mistisizm məsələsini qaldıraraq, Şərq fəlsəfəsində mistik başlanğıcla islam dini əsaslarını düzgün dərk etməməkdən yaranan mistisizmi bir-birindən ayıra bilmişdir.

Nəsimi yaradıcılığının ən müxtəlif layları da M.C.Cəfərovun diqqətini çəkmiş və araşdırılmışdır. O, xüsusilə Nəsimi şeirinin fəlsəfəsinin özəlliyini vurğulamış, onu yaşadığı dövrün ədəbi mühitində günəş şüası kimi qiymətləndirmişdir. M.C.Cəfərov tədqiqatında belə bir müqayisə aparır: *"Şərqdə Nəsiminin ölüm xəbəri Qərbdə Giordano Brunonun ölüm xəbərinə bərabər idi"*[2], bununla da Nəsiminin təkcə yaradıcılıq miqyasının deyil, həm də onun şəxsiyyətinin əhəmiyyətini vurğulayır.

Azərbaycan klassik ədəbiyyatının genezisi haqqında danışarkən M.C.Cəfərovun yazıçı-mütəfəkkir M.F.Axundzadə haqqında araşdırmalarını yada salmamaq mümkün deyil. Bir çox ədəbiyyatşünas alimlər kimi o da M.F.Axundzadənin şəxsiyyəti və yaradıcılığına üz tutmuş, onun Azərbaycan ədəbiyyatında realizm cərəyanı, eləcə də Şərq fəlsəfəsinə dair mütərəqqi baxışlarını əks etdirən ədəbi-tənqidi məqalələrini təhlil etmişdir..

M.Ə.Sabir yaradıcılığının motiv təhlilini aparan M.C.Cəfərov Azərbaycan ədəbiyyatında satirik ideyaların inkişaf yolunu izləyir.

---

[2] Cəfərov, M.C. Seçilmiş əsərləri. 2-clddə. – 1cild / M.C.Cəfərov, – Bakı: Azərnəşr, – 1973. – s.11.

H.Cavid və onun davamçılarının yaradıcılığının xüsusiyyətlərini təhlil edərkən romantik qəhrəmanın müstəsnalıq prinsipini önə çəkir, həm də qeyd edir ki, romantizmin hər hansı yeni forması bir konsept kimi qəbul edilməlidir. Bununla bağlı M.C.Cəfərov A.Səhhət, M.Hadi, A.Şaiq və başqalarının yaradıcılığını da araşdırır. Bu paraqrafda M.C.Cəfərovun fəaliyyətində daha bir prioritet sahəyə toxunulur. Bu, onun uşaq ədəbiyyatı və uşaq jurnallarının fəaliyyəti haqqında düşüncələri ilə bağlıdır.

M.C.Cəfərovun alim və pedaqoq kimi həyat yolunun və şəxsiyyətinin inkişafının öyrənilməsinə əsaslanan birinci fəsildən gələn qənaətləri belə ümumiləşdirmək olar. Akademik M.C.Cəfərovun fəaliyyəti çoxşahəli və genişmiqyaslı olub, müraciət etdiyi mövzular və problemlər müxtəlifliyi ilə seçilirdi. M.C.Cəfərov Azərbaycan ədəbiyyatının tədqiqinə, onun təkcə rus dilinə deyil, dünya ədəbiyyatına inteqrasiyasına böyük töhfə vermişdir.

*Birinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.*[3]

İkinci fəsil – **"Akademik M.C.Cəfərov və Azərbaycan-rus ədəbi əlaqələri"** üç paraqrafdan ibarətdir. Birinci paraqrafda – **"Azərbaycan-rus ədəbi əlaqələrinin yaranmasının tarixi zəminləri"** – ədəbiyyatın müvafiq axtarış və tədqiqat funksiyalarından biri olan ədəbi əlaqələrin dərin tarixi köklərindən bəhs edilir. Qeyd edək ki, alimlərin fikrincə, bu funksiya *"arifmetik cəmi kimi deyil, dünya mədəniyyəti tarixində bənzəri olmayan müstəqil bir hadisə kimi qəbul edilməlidir"*[4].

Ədəbiyyatlararası əlaqələr hər bir qarşılıqlı əlaqədə olan ədəbiyyatın inkişaf prosesinə töhfə verir. Bundan çıxış edərək, demək olar ki, bu prosesdə ədəbiyyatların hər biri üçün bir ədəbiyyatın digəri

---

[3] Ганбарова, Н.Г. Жизненный путь академика М.Дж.Джафарова. Научно-педагогическая деятельность // VI Elmi Araşdırmalar və aktual problemlər Beynəlxalq konfransın materialları: – Bakı: Avrasiya Universiteti, – 2020. – с.170-173.; Cəlil Məmməquluzadənin yaradıcılıq fərdiliyi. Akademik M.C.Cəfərovun axtarışları zəminində // Naxçıvan Dövlət Universiteti, Elmi Əsərlər, Humanitar elmlər seriyası, – 2022. № 5(118), – s.81-83.

[4] Межнациональные литературные связи / Под ред. С. Ивановой. – Рига: Латвийский государственныйуниверситет им. П.Стучки. – Москва: – 2003. №11. – с.8.

vasitəsilə tanınmasına və hermenevtik təhlili üçün situasiya yaranır. Bu mənada akademik M.C.Cəfərovun əsərləri çox böyük ədəbi-ictimai əhəmiyyətə malikdir. O, milli ədəbiyyatları dialektik vəhdətdə göstərir, bir ədəbiyyatın digər ədəbiyyata üstünlük təşkil edən, dominant təsirinə qarşı çıxır. Beləliklə, M.C.Cəfərov sovet dövründə təkcə ideoloji deyil, həm də estetik cəhətdən hakim olan rus ədəbiyyatının Azərbaycan ədəbiyyatına müstəsna təsiri ideyasını tamamilə rədd edir.

M.C.Cəfərovun "Azərbaycan-rus ədəbi əlaqələrinin inkişaf tarixindən" adlı fundamental əsəri həm forma, həm də məzmun baxımından unikal bir tədqiqatdır. Alimin ideyasına görə hər bir müəyyən milli ədəbiyyatı başqa ədəbiyyatlar üçün əlavə mənbə kimi qəbul edilməlidir. M.C.Cəfərovun tədqiqatının ən mühüm tarixi əhəmiyyəti məhz bundan ibarətdir.

Bu paraqrafda Ş.Qurbanovun "XIX əsrdə Azərbaycan-rus ədəbi əlaqələrinin inkişaf mərhələləri" və M.C.Cəfərovun "Azərbaycan-rus ədəbi əlaqələrinin inkişaf tarixindən" əsərlərinin müqayisəli təhlili verilmişdir. Vurğulanır ki, hər iki əsər eyni dövrü – XIX əsr – əhatə etsə də, bu mövzunun öyrənilməsinə müəlliflərin yanaşması kəskin şəkildə fərqlənir.

Ş.Qurbanov öz kitabında bu ədəbi əlaqələri üç mərhələyə bölərək, hər bir mərhələnin inkişafı üzərində ətraflı dayanır. İlk iki mərhələdə müəllif tək rus ədəbiyyatının təsiri haqqında danışır. Yalnız üçüncü mərhələnin materialı hər iki ədəbiyyatın qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri və zənginləşməsi baxımından təqdim təhlil olunur.

M.C.Cəfərovun kitabında ədəbi prosesin tam əks olunduğunu, və materialın tarixi-müqayisəli araşdırma formasında aparılmasını görə bilirik. Tədqiqatçını daha çox qarşılıqlı zənginləşmə prosesini göstərməyə çalışır. Müəllif araşdırılan dövrdə Rusiya imperiyasının ucqar ədəbiyyatlarının mərkəz ədəbiyyatının inkişafına necə kömək etməsi, bütün mütərəqqi ideyaları dəstəkləməsi baxımından təqdim edir. M.C.Cəfərov öz əsərində göstərmək istəyir ki, Azərbaycan ədəbiyyatı xadimləri XIX əsrdə Rusiya dövlətinin ədəbi mühitində yalnız müşahidəçiləri deyil, həm də iştirakçıları idilər.

M.C.Cəfərov öz araşdırmasında Nizami, Nəsimi, Füzuli dövrü ilə müqayisədə Azərbaycan ədəbiyyatının inkişafında müəyyən boşluğa diqqət çəkir. XVIII əsrdə, alimin qeyd etdiyi kimi, Molla

Pənah Vaqifin lirikasını xüsusilə vurğulayaraq, onu birmənalı şəkildə Nizami və onun məslək varislərinin qoyduğu ənənələrin davamçısı kimi dəyərləndirmək lazımdır.

M.C.Cəfərovun fikrincə, Nizami dövründən başlayaraq Azərbaycan ədəbiyyatının ölkə hüdudlarından çox-çox kənarda müzakirə obyektinə çevrildiyi ədəbi əlaqələr inkişaf etməyə başlayır. O, XVIII əsrin sonlarında bu prosesin "yavaşılaması"nı qeyd edir. Bu prosesi alim mürəkkəb tarixi şərait, davamlı müharibələr, kiçik xanlıqlara parçalanmış Azərbaycanın bütün sahələrdə, o cümlədən mədəniyyət, incəsənət, ədəbiyyatda vahid məqsədyönlü inkişaf proqramının olmaması ilə izah edir.

M.C.Cəfərov qeyd edir ki, Azərbaycan Rusiya imperiyasının tərkibinə daxil olduqdan sonra Azərbaycan ziyalıları üçün rus ədəbiyyatı nümunələri və rus dili vasitəsilə isə dünya mədəniyyəti ilə tanışlıq yeni imkanlar açmışdır. Eyni zamanda, rus və Qərb oxucuları bu yeni mərhələdə Azərbaycan ədəbiyyatı ilə tanış olmağa başlamışlar.

İkinci paraqrafda – **"Azərbaycan-rus ədəbi əlaqələrini formalaşdıran ədəbi vasitəçilər"** – qeyd olunur ki, ədəbiyyatlar arasında qarşılıqlı əlaqələrin intensivliyi Azərbaycan və rus ədəbiyyatının sinxronlaşmasına səbəb olur. Bunun nəticəsində aydın olur ki, yaxın əlaqədə olan, lakin genetik cəhətdən fərqli xalqlar arasında da eyni, oxşar mövzu və problemlərə müraciət mümkündür.

Bu paraqrafda Abbasqulu ağa Bakıxanov, Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, Qasım bəy Zakir, İsmayıl bəy Qutqaşınlı kimi Azərbaycan elm və ədəbiyyat xadimlərinin əsərlərinin rus yazıçılarının əsərləri ilə müqayisəli təhlili verilmiş, paralellər aparılmış, fərqli və ümumi cəhətləri araşdırılmışdır. Belə ki, məsələn, M.C.Cəfərov yeni tarixi şəraitdə satiranın inkişafından danışarkən, belə bir nəticəyə gəlir ki, "Araşdırılan dövrdə görkəmli Azərbaycan şairi Qasım bəy Zakirin satiraları rus müəlliflərinin satiraları ilə vəhdət təşkil edirdi».[5]

Rus və Azərbaycan müəlliflərinin əsərlərinin əlaqəli şəkildə təhlili ilə yanaşı, M.C.Cəfərov onların ədəbi əlaqələrin inkişafındakı rolunu da qiymətləndirir. Bu baxımdan Qasım bəy Zakirin yaxın dostlarından biri,

---

[5] Cəfərov, M.C. Azərbaycan-rus ədəbi əlaqələri tarixindən / M.C.Cəfərov. – Bakı: Azərnəşr, – 1964. – s.22

gözəl yazıçı, çar ordusunun general-mayoru İsmayıl bəy Qutqaşınlının yaradıcılığının Azərbaycan-Rusiya ədəbi əlaqələrinin formalaşmasında və inkişafında böyük xidmətləri xüsusi qeyd olunur.

M.C.Cəfərov Həsən bəy Zərdabinin xidmətlərini qeyd edərək, ədəbi əlaqələrin inkişafında onun yaratdığı "Əkinçi" qəzetinin rolunu xüsusilə vurğulayır. O, həmçinin Zərdabinin məsləkdaşlarından biri kimi dövrün görkəmli şairi, Azərbaycan-rus ədəbi əlaqələrinin başlanğıcında dayanan Seyid Əzim Şirvanini göstərir.

Akademik M.C.Cəfərov əsərlərində hansı mövzuya həsr olunmasından asılı olmayaraq, Azərbaycan ədəbiyyatının heç vaxt "əyalət darlığı" və ya təcrid ilə səciyyələnmədiyini əsaslandırır və bunu sübut edir. Dünya ədəbiyyatında mövcud olan bütün duqqətə layiq ədəbi nümunələr Azərbaycan ədibləri tərəfindən dərindən öyrənilmiş, onların əsasında millətlərarası ədəbi əlaqələrin unikal formaları yaradılmışdır.

Beləliklə, deyə bilərik ki, M.C.Cəfərov "ədəbi vasitəçilər" adlanan şəxslərin roluna böyük əhəmiyyət vermişdir. Onların yaradıcılığı və şəxsi keyfiyyətləri ilə XIX əsrin 80-ci illərindən başlayaraq artıq müəyyən bir sistem kimi formalaşmış Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafına bilavasitə və ya dolayısı ilə töhfə verdiklərini əsaslandırmışdır.

Üçüncü paraqraf **"Azərbaycan-Rusiya ədəbi əlaqələrinin fəlsəfi, mədəni, sosial aspektləri"** adlanır. Burada M.C.Cəfərovun "Azərbaycan-Rusiya ədəbi əlaqələrinin tarixindən" və Ş.Qurbanov "XIX əsrdə Azərbaycan-rus ədəbi əlaqələrinin inkişaf mərhələləri"adlı monoqrafiyalarının müqayisəsi əsasında təhlil aparılır. Azərbaycan-rus ədəbi əlaqələrinin işıqlandırılmasında bu əsərlərin böyük rolu, elmi-tərbiyəvi əhəmiyyəti vurğulanır, eyni zamanda müəlliflərinin mövqelərindəki fərqli cəhətlər də qeyd edilir.

1966-cı ildə "Voprosı literaturı" jurnalında çap olunan S.Abdullayevanın "İki ifrat" məqaləsində bu iki əsər müqayisə edilir. Müəllif bu əsərlərdə Azərbaycan-rus ədəbi əlaqələri ilə bağlı əsas fikir fərqliliyini qeyd edir: *"Birinci mərhələdə Azərbaycan-rus ədəbi əlaqələrinin "qarşılıqlı xarakter daşımadığını", ikinci mərhələdə isə "böyük miqyaslı əlaqələrdən danışmaq hələ də çətindir" hesab edən*

*Ş.Qurbanovdan fərqli olaraq, M.Cəfərov hesab edir ki, əvvəlcədən iki ədəbiyyat arasında qarşılıqlı əlaqələr aydın görünür.*”[6]

M.C.Cəfərovun tədqiqatında söhbət bu əlaqələrin ilk cücərtilərini təmsil edən materialın bir növ ilkin işlənməsindən, onların modelləşdirilməsindən gedir. O, öz işində ədəbiyyatların və mədəniyyətlərin qarşılıqlı əlaqəsini şərtləndirən bir sıra amilləri diqqət mərkəzinə çəkir: fəlsəfə, ümumilikdə mədəniyyət, siyasət, jurnalistikanın inkişafı, ədəbi tənqid, tərcümələr.

M.C.Cəfərov Azərbaycan-rus ədəbi əlaqələrinin qurulmasına məhz o mənada diqqət yetirirdi ki, müxtəlif mental mədəniyyətlərin nümayəndələri cəmiyyətin vəziyyəti və gələcək inkişafı ilə bağlı mövcud problemləri müxtəlif cür müəyyənləşdirərək, tədqiq edərək, nəinki formal, struktur, həm də məzmun baxımından eyni fikirdə yetkin olurlar.

Azərbaycan-rus ədəbi əlaqələrinin formalaşmasında və inkişafında qabaqcıl rus ədəbiyyatı və mədəniyyətinin rolunu qeyd edən M.C.Cəfərov xalqların özlərinin də inkişaf və yaxınlaşmasına xidmət edən amilləri də göstərir. Bu, ilk növbədə, azərbaycanlılar üçün Rusiyanın ən yaxşı universitetlərində təhsil almaq imkanıdır.

Bu dövrdə Azərbaycan ziyalılarının Z.Marağalı, Ə.Talıbov və başqaları kimi görkəmli nümayəndələri Moskvada və Sankt-Peterburqda təhsil alıb öz baxışlarını, mövqelərini, dünyagörüşlərini formalaşdırırdılar. Onların yaratdığı əsərlərdə idrak və mədəni prinsiplər əsas motiv olmuşdur. M.C.Cəfərov M.F.Axundzadənin fəlsəfi məktublarının motivlərini əks etdirən Z.Marağalının “İbrahim bəyin səyahəti” əsərini xalqların mədəni yaxınlaşmasına töhfə verən ən yaxşı əsərlərdən hesab etmişdir.

Alim xalqların və ədəbiyyatların yaxınlaşmasına, qarşılıqlı zənginləşməsinə də töhfə verən tərcümənin inkişafında böyük Azərbaycan romantik şairi A.Səhhətin, rus müəlliflərinin bir çox əsərlərini tərcümə etmiş N.Nərimanovun fəaliyyətinin xüsusi rolunu vurğulayır. Məzunları C.Məmmədquluzadə, F.Köçərli, M.Maqomayev, S.S.Axundov, Ü.Hacıbəyli və başqaları olan Qori Müəllimlər Seminariyasının rolunu yüksək qiymətləndirərək, onların

---

[6] Абдуллаева, С. Две крайности: [Электронный ресурс] / URL: https://volpit.ru>… (22.05.2022)

rus mədəniyyəti və ədəbiyyatı ilə bağlılığının müsbət tərəflərini göstərir.

M.C.Cəfərov Azərbaycan-rus ədəbi əlaqələrinin sistem kimi formalaşmasında jurnalistikaya da böyük əhəmiyyət verir. Bu baxımdan alim C.Məmmədquluzadənin o dövrün mətbuatında yer alan bir sıra çıxışlarını araşdırır. O qeyd edir ki, böyük satirikin yaratdığı "Molla Nəsrəddin" jurnalı xalqa ünvanlanan tribunaya çevrilmişdi. Bu jurnal vasitəsilə çarizmin milli kənarlara davam edən irtica siyasətinə qarşı mübarizəyə çağırışlar öz əksini tapırdı.

Bu fəsildə aparılan araşdırmaları, əldə edilən nəticələri yekunlaşdıraraq qeyd etmək lazımdır ki, akademik M.C.Cəfərovun "Azərbaycan-rus ədəbi əlaqələri tarixindən" əsəri bütöv bir sistem kimi ədəbi əlaqələri işıqlandıran dəyərli tədqiqatlardan biri olmuşdur.

Burada XIX əsr – XX əsrin əvvəllərində tarixə, ədəbiyyata, fəlsəfəyə, mədəniyyətə, təhsilə aid bir sıra ən mühüm problemlər araşdırılmış, mədəniyyət hadisələrinin intensivliyini stimullaşdıran, bu günə qədər davam edən ədəbi əlaqələrin formalaşması və inkişafının şərtləri göstərilmişdir.

*İkinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.*[7]

Üçüncü fəsil – **"Akademik M.C.Cəfərov rus ədəbiyyatı tədqiqatçısı kimi"** – iki paraqrafdan ibarətdir. Birinci paraqrafda – **"Akademik M.C.Cəfərovun tədqiqatında rus ədəbiyyatı"** – Azərbaycan alimin rus ədəbiyyatı nümayəndələri A.S.Puşkin, N.A.Nekrasov, L.N.Tolstoy, V.Q.Belinski, N.Q.Çernışevski, A.I.Hertsen, A.N.Ostrovski, M.Qorkinin yaradıcılığının öyrənilməsinə verdiyi mühüm töhfədən bəhs edilir.

---

[7] Ганбарова, Н.Г. О факторах взаимодействия и взаимообогащения литератур // – Bakı: AMEA M.Fizuli adına Əlyazmalar institutu, Filologiya məsələləri, – 2022. №7, – с.322-330.; Азербайджанско-русские литературные связи: к постановке вопроса // – Москва: Современные гуманитарные исследования, – 2022. № 3 (106), – с. 18-21.; Из истории становления азербайджанско-русских литературных связей (на основе исследований ак. Ш.Гурбанова, ак. М.Дж.Джафарова) // Al-Farabi XI Beynəlxalq konfransın materialları. – Atatürk Universiteti, Erzurum, Türkiyə: – 19 – 20 avqust, – 2022, – с.357-359.; Роль переводных текстов в аспекте межлитературной коммуникации // – Бухара, Научный вестник Бухарского государственного университета, – 2024. №6(111), – с.137-143.

M.C.Cəfərov rus ədəbiyyatı nümayəndələrinin yaradıcılığının tədqiqi üçün bir növ unikal model işləyib hazırlamışdır ki, onun koordinat sistemində aşağıdakı aspektləri ayırd etmək olar: problem-tematik, varislik, fəlsəfi, mədəni, tarixi aspektlər.

Məsələn, təhlilin tarixi aspekti M.C.Cəfərovun Hertsenə həsr etdiyi "Rusiya azadlıq hərəkatının carçısı" əsərində müşahidə edirik. Burada bu şəxsiyyətin cəmiyyətdə formalaşma mərhələləri işıqlandırılır, yaradıcılığı isə ideya-bədii axtarışları dövrünün ədəbiyyatı və fəlsəfəsi kontekstındə izlənir.

Puşkin və Nekrasovun əsərlərinin tədqiqi ilk növbədə problem-tematik aspektdə aparılır. Alim Puşkinin dövrünün problemlərini işıqlandırmaq, xalqı, onun milli maraqları ilə bağlı olanları yaradıcılığının mərkəzinə qoymaq, eləcə də Avropa ədəbiyyatı klassiklərinin ənənələrini mənimsəmək kimi unikal qabiliyyətini qeyd edir.

M.C.Cəfərov N.A.Nekrasovun yaradıcılığını yüksək qiymətləndirərək, onu Azərbaycan xalqının sevimli müəlliflərindən biri adlandırır. O, burada Nekrasovun ideyalarının Azərbaycanda yayılmasında XX əsrin əvvəllərində görkəmli Azərbaycan yazıçısı və publisisti Eynalı Sultanovun rolunu xüsusilə vurğulayır.

L.N.Tolstoyun əsərləri fəlsəfi aspektdə nəzərdən keçirilir. Burada M.C.Cəfərov yazıçının reallığa verdiyi dəyərləndirmələrini son dərəcə doğru olduğunu vurğulayır. Alim Tolstoyun ədəbiyyat, din və tarix fəlsəfəsinə böyük maraq göstərir.

N.Q.Çernışevskinin yaradıcılığını da fəlsəfi aspektdə araşdıraraq, alim materializm, antropologiya, irqlər və millətlər, ictimai elmlərin rolu və s. məsələlərə diqqət yetirir.

M.C.Cəfərov böyük rus dramaturqu A.N.Ostrovskinin yaradıcılığına diqqətlə yanaşaraq, onun yaradıcılığını kulturoloji aspektdən təhlil edir. O, Ostrovskini rus ruhunun bilicisi adlandırır. Alim Azərbaycan teatr xadimlərinin rus dramaturqunun yaradıcılığına müsbət münasibətini də vurğulayır, onun dram əsərlərinin Azərbaycan səhnəsində ən yaxşı tamaşalardan hesab edir.

Paraqrafı yekunlaşdıraraq qeyd edək ki, M.C.Cəfərovun rus ədəbiyyatı nümayəndələrinin yaradıcılığına baxışı sənətkarların irsinin ənənəvi tədqiqinə bir növ diffuziyadır, alimin tədqiqatda

istifadə etdiyi yanaşmaların müxtəlifliyi ədəbiyyatların və onların arasında yaranan ədəbi əlaqələrin öyrənilməsində müəyyən paradiqmaların aşkarlanmasına kömək edir.

Üçüncü fəslin ikinci paraqrafı – **“«XIX əsrin rus ədəbiyyatı» dərsliyi sistemlərarası məkan yaratmaq üçün mənbə kimi”** adlanır. Burada M.C.Cəfərovun tək Azərbaycan russşünaslığının formalaşmasında və inkişafında rolu deyil, həm də rus ədəbiyyatının tədrisində, dərsliklərin yaradılmasında xidmətləri xüsusi vurğulanır.

1935-ci ildə rus ədəbiyyatından dərs deməyə başlayan M.C. Cəfərov, elə həmin il ilk elmi əsəri olan “Rus ədəbiyyatı haqqında tarixi oçerklər” kitabını nəşr etdirir. Həcmcə kiçik olan bu əsər (cəmi 105 səhifə) əslində onun gələcək fundamental 1970-74-cü illərdə yazılan üçcildlik “XIX əsrin rus ədəbiyyatı” adlı dərsliyinin əsasını təşkil etdi.

Bu dərslik M.C.Cəfərovun çoxillik alim və pedaqoq kimi fəaliyyətinin nəticəsi idi. Rus ədəbiyyatının “qızıl dövrü” burada M.C.Cəfərovun təfsiri və orijinal yozumunda təqdim olunur. Onun XIX əsr rus ədəbiyyatına müraciəti məhz bu dövrdə rus ədəbiyyatı dünya bədii xəzinəsinə yeni mövzular, janrlar və ədəbi cərəyanlar daxil etməsi və tənqidi fikrin zənginliyi ilə bağlıdır. Öz dərsliyini Azərbaycan dilində yazmağının səbəbi alim və pedaqoqun rus ədəbiyyatının bu dövrü haqqında geniş məlumatı Azərbaycan oxucusuna çatdırmaq məqsədini daşıyırdı.

M.C.Cəfərovun “XIX əsr rus ədəbiyyatı” dərsliyi digərlərindən fərqlənir. Bu dövr rus yazıçılarının yaradıcılığının əsasını və özəlliyini təşkil edən mənəvi komponent rus ədəbiyyatını dünya səviyyəsinə çıxaran təsirli amillərdən biri olmuşdur. Dərslikdə bu xüsusilə vurğulanmışdır. M.C.Cəfərov rus ədəbiyyatına hakim ideologiyanın ədəbiyyatı kimi deyil, ümumbəşəri mənafelərə xidmət edən bədii düşüncəni özündə cəmləşdirən dünya ədəbiyyatının tərkib hissəsi kimi göstərən alim və müəllimlərdən idi.

M.C.Cəfərovun 3 cildlik dərsliyinin strukturu və məzmunundan danışdıqda, qeyd etmək lazımdır ki, burada material xronoloji ardıcıllıqla düzülmüşdür. Birinci cild Ə.Ağayevin “Ön söz”ü ilə açılır və rus ədəbiyyatının 1800-cü ildən 1840-cı illərə qədər bir dövrünü əhatə edir. Bu cild səkkiz fəsildən ibarətdir. Burada 1800-1830-ci illər

ədəbiyyatının ümumi mənzərəsi (fəsil 1); A.S.Qriboyedov və A.S.Puşkinin yaradıcılığı (2-3-cü fəsillər); 30-40-cı illərdə ədəbiyyatın inkişaf xüsusiyyətləri (4-cü fəsil); M.Y.Lermontov, N.V.Qoqol, A.I.Hertsen, V.Q.Belinskinin yaradıcılığının (5-8-ci fəsillər) təhlili yer alır.

Dərsliyin birinci cildində zəngin material təqdim edilmişdir. Burada müəllif XIX əsrin birinci otuzillliyində əsas cərəyanlarına, realizmin əsas prinsiplərinə toxunur, İ.A.Krılovun yaradıcılığı üzərində dayanır, onun əsərlərinin təkcə rus dili üçün deyil, həm də Azərbaycan ədəbiyyatı üçün əhəmiyyətini xüsusilə qeyd edir. Lermontov haqqında danışarkən müəllif şairin bir çox əsərlərinin yaranmasında Qafqazın rolunu vurğulayır. Belinskinin haqqında söhbət açarkən M.C.Cəfərov onu rus ədəbi tənqidinin konseptual əsası adlandırır və tənqidçinin yaradıcılığını 1800-1840-cı illər rus ədəbiyyatı baxımından işıqlandırılır. A.İ.Hertsenin yaradıcılığını M.C.Cəfərov həm tənqidçi, həm də inqilabçı demokrat kimi təhlil edir.

Dərsliyinin ikinci cildində 1850-1860-cı illərin rus ədəbiyyatına dair material verilir. Bu cild də 8 fəsildən ibarətdir: 50-60-cı illərdə ədəbiyyatın inkişafı (1-ci fəsil); İ.S.Turgenev, N.A.Qonçarov, A.N.Ostrovski, N.A.Dobrolyubov, M.E.Şedrin yaradıcılığının tədqiqi (2-8-ci fəsillər). Bu cildin özəlliklərindən biri müəllifin 50-60-cı illərdə Rusiyanın ədəbi-ictimai həyatının öz şərhində müfəssəl tədqiqi, habelə yuxarıda qeyd olunan yazıçıların yaradıcılığının ətraflı monoqrafik təhlili təşkil edir.

Turgenev yaradıcılığına üz tutaraq, alim onun böyük həcmli əsərləri ilə yanaşı, mənsur şeirlərinə də xüsusi diqqət yetirir. Onlardan biri olan “Rus dili” şeirinin M.C.Cəfərov tərəfindən Azərbaycan dilinə tərcüməsi də verilmişdir. Çernışevski haqqında materialda müəllif daha çox onun tənqidçi və yazıçı kimi fəaliyyətinə deyil, yaradıcılığını qidalandıran mənbələrə diqqət yetirir. M.C.Cəfərov Qonçarov yaradıcılığını təhlil edərək rus yazıçısının əsərlərinin psixologizmindən, onun əsərlərinin Azərbaycan dilinə tərcüməsindən bəhs edir.

Xüsusi ehtiramla M.C.Cəfərov N.A.Nekrasov haqqında yazır, onun bədii əsərlərində reallaşdırdığı demokratik ideyaları vurğulayır. Burada şairin əsərlərindən nümunələrə müraciət edilir. Nekrasovun yaradıcılığının aparıcı motivlərindən birini qeyd edərək, M.C.Cəfərov

yazır: *"Nekrasovun yaradıcılığı öz xalqının böyüklüyünü, onun gələcəyini düzgün dərk etmək və ona hörmət etmək istəyini əks etdirir."*[8]

Görkəmli dramaturq A.N.Ostrovskinin yaradıcılığı Nekrasov, Saltıkov-Şedrin, Uspenski, Turgenevin əsərləri ilə müqayisə edilir. Görkəmli tənqidçi Dobrolyubovun yaradıcılığının təhlilində dərslik müəllifi öz təəssüratlarını da əks etdirir.

Son üçüncü cilddə 1880-1890-cı illər ədəbiyyatının təhlili yer alır. Bu cildin strukturu bir qədər fərqlidir. Müəllif bu fərqi XIX əsrin sonunda Rusiyadakı tarixi vəziyyətlə əsaslandırır. Alim bu cildin "70-90-cı illərin ədəbiyyatı" adlı dörd fəslinin birincisində sözügedən dövrdə Rusiyanın ədəbi, mədəni və ictimai-siyasi həyatında baş verən hadisələri ətraflı təhlil edir. 2-4-cü fəsillərdə F.M.Dostoyevski, L.N.Tolstoy və A.P.Çexov kimi rus ədəbiyyatının nəhənglərinin həyat və yaradıcılıq yolu ardıcıl şəkildə işıqlandırılır.

Dərsliyin bu cildində 70-90-cı illər ədəbiyyatının icmalında M.Qorkinin ilk əsərlərinin təhlili verilir. Digər dərsliklərdə o, yalnız XX əsr ədəbiyyatının nümayəndəsi kimi təqdim edilirdi. F.M.Dostoyevski və L.N.Tolstoyun yaradıcılığına həsr olunmuş fəsillər xüsusi diqqətə layiqdir. Onların yaradıcılığı insan məfhumu və əxlaqi ideyallar nöqteyi-nəzərindən araşdırılır, yazıçıların fəlsəfi baxışlarına diqqət yetirilir.

Məsələn, göstərilir ki, Tolstoy heç bir fəlsəfi sistemi qəbul etməyib öz sistemini yaradır. Dostoyevski haqqında danışarkən dərslik müəllifi onun fəlsəfi baxışlarının sintetik mahiyyətini vurğulayır. Dostoyevski yaradıcılığını tədqiq edən müasir alimlər M.C.Cəfərovun Azərbaycan dostoyevskişünaslığına mühüm töhfələr verməsini qeyd edirlər.

A.P.Çexov haqqında fəsildə bu böyük söz ustadının yaradıcılığını səciyyələndirən xüsusiyyətlər təhlil olunur. M.C.Cəfərov yazıçının hekayə janrındakı məharətini, yumor və ironiyasının özəlliyini vurğulayır, onun dram əsərlərinin çoxmənalılığına görə onları "simfoniya" ilə müqayisə edir.

Üçüncü fəsilə yekun vuraraq qeyd etmək lazımdır ki, akademik M.C.Cəfərov rus ədəbiyyatının "qızıl dövrü" haqqında monumental

---

[8] Cəfərov, M.C. XIX əsr rus ədəbiyyatı. II hissə / M.C.Cəfərov. – Bakı: Azərnəşr, – 1974. – s.29.

əsər yaratmışdır. Onun nəzərdən keçirdiyi dövrün ədəbi prosesi, bu dövrdə yazıb yaradan ayrı-ayrı yazıçı və tənqidçilərin yaradıcılığının orijinal şərhləri bugün də aktuallığını itirməmiş və müasir alimlərdə maraq doğurur.

*Üçüncü fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.*[9]

**Nəticədə** təqdim olunan tədqiqatın yekunları ümumiləşdirilir, akademik M.C.Cəfərovun ədəbiyyatşünas, tənqidçi, publisist, pedaqoq, dərslik və xüsusi kurslar müəllifi kimi çoxşahəli fəaliyyət göstərən, sıravi qəzet əməkdaşından Azərbaycan Milli Elmlər Akademiyasının ən nüfuzlu elmi-tədqiqat institutlarından birinin rəhbərinə qədər yolu qət etmiş şəxs olduğu vurğulanır. O, təkcə klassik Azərbaycan ədəbiyyatının deyil, həm də rus ədəbiyyatının tədqiqinə mühüm töhfələr vermişdir. M.C.Cəfərov Azərbaycan ədəbiyyatını digər ədəbiyyatlarla dialektikada nəzərdən keçirilməsini prioritet ədəbi problemlərdən biri kimi irəli sürür, ədəbiyyatrşünaslıqda ədəbi əlaqələrə yeni, paritet əsasında qurulmuş yanaşmaları nümayiş edir. Onun rus ədəbiyyatına dair əsərlərinin, o cümlədən 3 cildlik "XIX əsrin rus ədəbiyyatı" dərsliyinin əhəmiyyəti ədəbiyyatlar arasında qarşılıqlı əlaqələrin öyrənilməsində digər ədəbiyyatlarla dialoqa hazır olmağın vacibliyi ilə müəyyənləşir.

[9] Ганбарова, Н.Г. Пушкин в оценке академика М.Дж.Джафарова // – Белгород: Международный научный журнал «Научные горизонты», – 2017. №4, – с.211-217.; Учебник академика М.Дж.Джафарова «Русская литература XIX века» как источник создания межсистемного пространства в художественной системе // – Bakı: AMEA M.Fizuli adına Əlyazmalar institutu, Filologiya məsələləri, – 2022. №13, – с.338-348.; Творчество академика М.Дж.Джафарова в освоении русской классической литературы в Азербайджане. Книга «Русские классики» // 6th international Euroasia Congress on Scientific Researches and Resent Trends. – Baku: – 18 – 20 may, – 2020, – с.174-177.; Духовная культура России и зарубежных стран: вопросы религии, философии, науки и искусства // XLVIII Научно-практическая конференция студентов «Мир культуры глазами молодых исследователей». – Пермь: 17 – 21 апреля, – 2023, – с.287-297.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır:**

1. Пушкин в оценке академика М.Дж.Джафарова // – Белгород: Международный научный журнал «Научные горизонты», – 2017. №4, – с.211-217.
2. Академик М.Дж.Джафаров как человек и как знаток русской литературы // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, Humanitar elmlər seriyası, – 2017. № 5(86), – с. 307-311.
3. Творчество академика М.Дж.Джафарова в освоении русской классической литературы в Азербайджане. Книга «Русские классики» // 6th international Euroasia Congress on Scientific Researches and Resent Trends. – Baku: – 18 – 20 may, – 2020, – с.174-177.
4. Жизненный путь академика М.Дж.Джафарова. Научно-педагогическая деятельность // VI Elmi Araşdırmalar və aktual problemlər Beynəlxalq konfransın materialları: – Bakı: Avrasiya Universiteti, – 2020. – с.170-173.
5. Cəlil Məmməquluzadənin yaradıcılıq fərdiliyi. Akademik M.C.Cəfərovun axtarışları zəminində // Naxçıvan Dövlət Universiteti, Elmi Əsərlər, Humanitar elmlər seriyası, – 2022. № 5(118), – s.81-83.
6. К типологии форм в литературной критике М.Ф.Ахундзаде (на материале исследований академика М.Дж. Джафарова) // Сборник статей XXI международной научно-практической конференции. – Пенза: – 27 июля, – 2022. – с.179-181.
7. О факторах взаимодействия и взаимообогащения литератур // – Bakı: AMEA M.Fizuli adına Əlyazmalar institutu, Filologiya məsələləri, – 2022. №7, – с.322-330.
8. Азербайджанско-русские литературные связи: к постановке вопроса // – Москва: Современные гуманитарные исследования, – 2022. № 3 (106), – с. 18-21.
9. Из истории становления азербайджанско-русских литературных связей (на основе исследований ак. Ш.Гурбанова, ак. М.Дж.Джафарова) // Al-Farabi XI

Beynəlxalq konfransın materialları. – Atatürk Universiteti, Erzurum, Türkiyə: – 19 – 20 avqust, – 2022, – c.357-359.

10. Учебник академика М.Дж.Джафарова «Русская литература XIX века» как источник создания межсистемного пространства в художественной системе // – Bakı: AMEA M.Fizuli adına Əlyazmalar institutu, Filologiya məsələləri, – 2022. №13, – c.338-348.
11. Духовная культура России и зарубежных стран: вопросы религии, философии, науки и искусства // XLVIII Научно-практическая конференция студентов «Мир культуры глазами молодых исследователей». – Пермь: 17 – 21 апреля, – 2023, – с.287-297.
12. Роль переводных текстов в аспекте межлитературной коммуникации // – Бухара, Научный вестник Бухарского государственного университета, – 2024. №6(111), – с.137-143.

Dissertasiyanın müdafiəsi __14__ __mart__ 2025-ci il tarixində saat __16:00__ Bakı Slavyn Universiteti nəzdində fəaliyyət göstərən ED 2.13 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1014, S.Rüstəm 33. Bakı Slavyan Universiteti.

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat __06__ __fevral__ 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.12.2024

Kağızın formatı: A5

Həcm: 36159 işarə

Tiraj: 30 nüsxə